

Hüseynlərə yer olmamalıdır! Şəksiz! Dünyada bütün despotik rejimlər devrilməlidir! Şəksiz! Dünya ölkələrində antik ənənələrə söykənən, bu gün ABŞ-da, Avropa ölkələrində inkişaf etdirilən demokratik, xalq seçiminə söykənən, “qərb modeli” adlanan idarəçilik sistemi tətbiq edilməli, insan hüquqları üstün mövqeyə keçməlidir! Bu da şəksiz! Amma daha yaxşı olar ki, Səddam Hüseynlərin, kralların, şahların, monarxların, özünü xalqlardan və qanunlardan yuxarı tutub, canı boğazından çıxana qədər millətinin başına turp əkən cürbəcür monstrların yaranmasına binədən imkan verilməsin, şərait yaradılmasın. Axı bələlərinə qol-qanad verən də, on-

mişdilər. Avropa üçün, İntibah üçün, o cümlədən ABŞ-ın Konqres Kitabxanası üçün xilas etmişdilər. Budur, neçə yüz ildən sonra onun “əvəzini” - yəni təşəkkürünü aldılar”.

Yazıdakı bu sözlər əslində dünya mədəniyyətinin taleyinə yanan hər bir düşüncəli insanın harayıdır.

Əgər siz bu qədər diqqətli və humanistsinizsə, bəs onda Parisin, Berlinin, Londonun, Nyu-Yorkun muzeylərini dolduran qədim Misir və Babilistan, eləcə də İslam mədəniyyəti abidələri hansı yolla aparılıb? İndi də İraqın talan edildiyi göz qabağındadır!..

Hər cür müqayisənin, paralelik axtarmaq cəhdinin qüsurlu olduğunu bilirəm, amma Səddam Hüseyn rejimi ilə bugünki Ermənistan rejimi arasındakı bənzəyişləri görməmək üçün gərək kor olasan.

Səddam Hüseyn Küveyti öz köh-

*Sabir RÜSTƏMXANLI*

# Bəlkə türk tarixindəki xidmətlərini?

## *Bu yazını əlli yaşlı gənc dostum Aqil Abbasa və bütün evsiz-eşiksiz qarabağlı qardaşlarıma həsr edirəm*

Xarici televiziya kanallarının İraq savaşı ilə bağlı gecə yarısı verilən analitik proqramlarından birində diqqətimi ilginc bir məqam çəkdi.

**Verilişin qonağı Buş, Bleyer və İspaniya liderinin Atlantik okeanında görüşdükləri adanın təsadüfi seçilmədiyini iddia edirdi. “Min il əvvəlki plan davam etdirilir” - deyirdi. Onun şərhinə görə, son dəmə, min il əvvəl İslam dünyasına qarşı Səlib yürüşlərinin qərarı da həmin adada verilibmiş... Yəni əgər min il sonra da bir İslam dövlətinə qarşı əməliyyatın hökmü həmin adada kəsilirsə, həqiqətə uyğun oldu-olmadı, istər-istəməz, şübhələnirsən və xəyalın min il əvvəlin o üzünə gedir; özündən asılı olmadan fikrin qarışır və verilişdə deyilən bu mülahizə beynində qol-qanad açır, şaxələnir. Bundan sonra məntiq işə düşür və fikirləşirsən ki, bəlkə o adada verilən qərarın həyata keçirilməsi istiqamətində ilk hədəf olaraq İraqın, Bağdadın seçilməsi də təsadüfi deyilmiş. Bəlkə də bu işdə Səddam Hüseyn rejimini devirmək bəhanəsi altında həm də uzun əsrlər İslam dünyasının dini mərkəzi, xilafətin başkəndi olmuş Bağdadı ələ keçirmək, müsəlman dünyasını ürəkdən vurmaq niyyəti dayanırmış. Yoxsa dünyanın bütün bicliklərini bilən bu boyda nəhəng dövlətlər üçün Səddam Hüseyn kimi bir boş çanağı aradan götürmək nə çətin işdi ki!..**

**Bu savaşın hər günü bir neçə milyard dollara başa gəlir. Bütövlüklə hərbi əməliyyatlara fantastik dərəcədə böyük bir vəsait sərf olunur. Bununla dünyanın yarısını yedizdirmək, dünya ölkələrindəki bütün qaçqınları evlə, işlə təmin etmək olardı. Ən başlıcası, bu vəsaitin çox cüzi bir hissəsini sərf etməklə İraqda qansız-qadasız, yumşaq bir hakimiyyət çevrilişi etmək və rejimi dəyişmək ABŞ-ın əlində su içimi kimi asan bir iş idi... Dünyada Səddam**ları silahlandıran, gücə çevirən də elə həmin dövlətlərdir.

**Dünyanın yarısını SSRİ silahlandırırdı, yarısını ABŞ... Bu gün də Rusiya Səddam Hüseynin balaca və daha eybəcər bir bənzəri, parodiyası olan Ermənistan prezidenti Köçəryanı təpədən dırnağa silahdandırır. Bir ölkə də ona dur demir! Bəlkə bunlar dünyanın özlərinə aid olmayan hissəsinə sadəcə bir poliqon-sınaq meydanı kimi baxırlar; yoxsa həmin ölkələrdə bu qədər siyasi, diplomatik, etnik, bioloji, hətta dini “təcrübələri”, eksperimentləri biz təşkil etmirik ki!**

**Bin Ladenləri, Səddam Hüseynləri özləri yaradıb, özləri şişirdib, özləri də partladırlar.**

**Amma bu bombalar həm də millətlərin, dövlətlərin, mədəniyyətlərin taleyində, anaların, uşaqların başında partlayır.**

**Səddam Hüseyni yıxmaq istəyirsənsə bəs Kərkükdəki türkü niyə qırdırırsan?**

**Ən parlaq niyyətlər belə dinc insanların qanı hesabına, savaşla, dağıdıcılıqla həyata keçirilirsə, ona haqq qazandırmaq olmaz!**

**Bu boyda bombalardan sonra nəyi, necə bərpa edəcəklər?**

**Bəs dağılan kitabxanalar, oğurlanan tarixi abidələr, İraqda qorunub saxlanılan Şumer və Babilistan ruhu necə bərpa ediləcək? “Nezavisimaya qazeta”nın 17 aprel 2003-cü il tarixli sayında “Bağdad oğruları” adlı yazıda doğru deyilir: “Bağdadda baş verənlər (və həm də təkcə Bağdadda yox) - humanitar faciədir. Mədəniyyətin, sivilizasiyanın faciəsidir. Təkcə Milli Kitabxana, məhşur Quranlar Kitabxanası, muzeylər və abidələr məhv edilməyib, bəşər tarixinin bütöv bir qatı məhv edilib. Siz Tarixin Sonunu və Avropanın Qürubunu gözləyirdiniz? Buyurun, bu da Tarixin Sonu və Avropanın Qürubu! Nə vaxtsa Ərəblər Antik dünyanın bir çox abidəsinin tamamilə məhv olmaqdan xilas et**nə əyaləti sayaraq işğal edəndə dünya ayağa qalxdı, o vaxt Ata Buşun başçılığı ilə İraq dünyanın siyasi, diplomatik qınaq hədəfinə çevrildi, sonra da hərbi əməliyyatla işğalçının burnu ovuldu, Səddam Hüseynə öz yerini göstərdilər...**

**Ermənistan da eyni şəkildə Azərbaycanın türk-erməni əhalisinin qarışıq yaşadığı DQ bölgəsini və bundan əlavə, bu bölgəni çevrələyən, bircə nəfər də ermənisi olmayan, daha yeddi rayonu da işğal edib və on beş ilə yaxındır işğal altında saxlayır. Həm DQ-da, həm də qonşu rayonlarda soyqırım və kütləvi qırğınlar törədilmiş, on minlərlə azərbaycanlı qətlə yetirilmiş, yüz minlərlə insan yurdunu tərk edərək, çöllərdə, çadırlarda yaşamağa məhkum edilmiş, tarixin görmədiyi bir insan faciəsi başlanmışdır...**

**BMT, Avropa Şurası, MDB kimi təşkilatların üzvü olan iki ölkədən biri Ermənistan - qonşu Azərbaycanın torpaqlarının beşdə birini uzun müddətdir ki, işğal altında saxlayır, bir milyona ana qucağı olan torpaqlar indi əlli-yetmiş min erməni quldurunun əlində qalıb. Buranı narkotika yuvasına, nüvə tullantılarının basdırıldığı yerə çeviriblər, gözəllik və abadlıqda tayı-bərabəri olmayan Qarabağ şəhər və kəndləri viran qoyulub, tarix və təbiət abidələri məhv edilir. Amma dünya buna əhəmiyyət vermir. Əksinə “quzunu qurda tapşırırlar”. Guya məsələnin Rusiyanın, Fransanın, ABŞ-ın başçılıq etdiyi Minsk qrupu həll edəcək... Haqq tərəzinin bir gözündə, erməni o biri gözündədir... Amma fərqi yoxdur, ermənini müdafiə edirlər, daha doğrusu, ABŞ - bir milyona yaxın erməni vətəndaşlarının səsini və pulunu, Fransa - köhnə “xristian qardaşlığı” ideyasına söykənən ermənipərəstliyini, Rusiya - Ermənistandakı hərbi bazalarını, strateji tərəfdaşını müdafiə edir!**

*Ardı 9-cu səhifədə*

# Bəlkə türk tarixindəki xidmətlərini?

***Bu yazını əlli yaşlı gənc dostum Aqil Abbasa və bütün evsiz-eşiksiz qarabağlı qardaşlarıma həsr edirəm***

(Əvvəli 8-ci səhifədə)

Deməli, bu yol qabaqcadan uğursuzluğa məhkumdur. Üstəlik ABŞ, təcavüzkar Ermənistana və terror yuvası olan DQ-a maddi və mənəvi yardımını da dayandırmır. Qapılarımı üzünə açan, sərvətimi onunla paylaşan mən, amma müdafiə edilən erməni!

Dünya minillərdir bu ikiüzlü, çoxbaşlı siyasətin içindən keçib gedir...

Ermənin yerinə mən olsaydım çoxdan daşımı daş üstündə qomamışdılar.

SSRİ dağılandan və mübarizə obyekti ortadan qalxandan sonra Qərb və NATO üstün sahə kimi terrorizmə qarşı mübarizəni seçib.

Bütün dünya terror təşkilatlarının adları çəkilir, amma erməni terrorizmi yada düşmür.

Niyə? Bəlkə öz bicbalalarını tanıdıqlarına görə?!

Köçəryanın Səddam Hüseyndən nə fərqi var?! O da İraqlı həmkarından dala qalmayaraq, Qarabağda öz həmvətənlərinə - yəni azərbaycanlılara qarşı silah işlədən, terror yoluyla onları qətlə yetirən, terrorizmin və separatçılığın başçılarından biri olan və indi də Ermənistanı qadağan olunmuş silahlarla dolduran bir qatildir!..

Bunu bilə-bilə Qərb hansı vicdanla bu terrorçunu bəsləyib, sinəsinə qurşun əvəzinə medal taxır?

Doğrudanmı bütün bunların arxasında dini, irqi, təəssübkeşlik dayanmır?

Ola bilər ABŞ və qərb doğrudan da məsələyə ayrı ölçülərlə yanaşır. Amma Ermənistan butun təbliğatını və tərəfdar axtarışını məhz bu dini amil üstündə, eybəcər və insanlığa yad bir şəkildə qurmuşdur. Bu yolla balaca Ermənistan böyük dünyaya gecə-gündüz dini, irqi dözümsüzlük fikrini püskürməkdə, dünyanın bu qədər faciələrdən sonra yaratdığı tarazlığı, sivilizasiyaların harmoniyasını pozmaqdadır.

Beləliklə, Erəmnistanın siyasəti bütün insanlığın gələcəyinə qarşı çevrilib.

Dünya bunu dərk eləmir?

... Fikrim dolandı və yenə gəldi Qarabağın üstünə. İraq savaşının kökünü min il əvvəldə axtarırlarsa, mən niyə çevrilib geri baxmayım, olmuşları yada salmayım? Hərçənd ki, biz keçmişləri yada salıb başımızı ağrıtmağı xoşlamırıq, amma heç olmazsa, qələm əhli kül basmış ocaqları qələmiylə qurdalamalıdır...

Çoxdan axtalanmış erməni dövlətçiliyin övlad yetirmək qabiliyyətinin olmadığını görəndə iki yüz il öncə, süni mayalanma yolu ilə, mənim torpaqlarımda bir erməni dövləti yaratdılar... Azərbaycanın, Göyçə dənizi də içində olmaqla, qədim torpaqları əlindən alındı... Bu heç. Qarabağın dağlıq hissəsində bir ovuc erməni üçün muxtariyyat qurulub, qədim alban abidələrimiz də bağışlandı onlara... Bu da heç. Bəs onda Aran Qarabağın və bir milyon dinc qarabağlının günahı nəydi və 50-60 min əldəqayırma ərsaq ermənisinə 1 milyon Qarabağ türkünün qurban verilməsinə dünya niyə belə ləzzətlə tamaşa edir və dözür?..

Söz yox, beynimdən onlarla cavab keçdi... Bu barədə çox yazmışıq. Amma bu gün mən tarixə köklənmişəm və tarixin cavabını eşitmək istəyirəm...

Bir anlığa gözüm qaraldı. Ermənistanda və Qarabağda dağılan şəhərlərimiz, kəndlərimiz, dəyişdirilən adlarımız, mənimsənilən sərvətlərimiz keçdi xəyalımdan. Gördüm ki, ermənilər təkcə türk düşməni deyillər, onlar həm də Mədəniyyət düşmənidirlər!.. Türk mədəniyyətinin düşməni! Onların bir niyyəti də bu mədəniyyətə yiyələnib, özlərinə tarix yaratmaqdır!

Azıx, Xocalı, Quruçay mədəniyyətləri də daxil olmaqla Kür-Araz ovalığı dünya sivilizasiyasının ən qədim beşiklərindən biri olmaqla yanaşı, ən azı Şumer dövründən, İşquz dövründən bəri ən böyük türk ocaqlarındandır. Qarabağın yerli əhalisi həmişə yetərincə böyük güc olub. Onüçüncü əsr mənbələrinə görə, türklər Aran və ya Qarabağın əsas əhalisiydi və burda 100 000 türk süvarisi vardı. Qarabağ Azərbaycan türk tarixinin bütün dönümlərində bir ordugah olub, orduların iqamətgahı və qışlağı olub. Bu baxımdan Qarabağ təkcə Azərbaycanın yox, bütün Türk dünyasının tarixində misilsiz rol oynamış bir bölgədir.

Əslində Qarabağın işğalının arxasında da türk düşmənçiliyi siyasəti dayanır. Tarixçilər 1915-ci ildə erməni soyqırımı olmayıb deyə barbar bağırsalar da, siyasətçilər Türkiyəni sarsıtmaq üçün bu saqqızı ağızlarından çıxarmırlar.

Amma növbəti hədəf məhz niyə Qarabağ oldu? Bəlkə ona görə ki, Qarabağ həmişə türklyün mənəvi qalalarından biri, səngəri və taxıl anbarı olub. Bəlkə ona görə ki, qarabağlıların ümumtürk tarixində xüsusi bir xidmətləri də var. Onların adları Anadoluda ilk türk dövlətlərinin qurucuları sırasında yer almaqdadır. Üstəlik Bizans imperatorluğunu nakauta salan ilk türk zərbəsi də məhz Qarabağda - Gəncənin güneyində 1045-ci ildə Azərbaycan - Qarabağ türkləri tərəfindən vurulub, Liparit orduları burda darmadağın edilib və Anadolunun türkləşməsinin yeni dövrü başlanıb.

Üç yüz illik Səlcuq dönəmindən sonra Anadolunun ilk bəyliklərindən olan Qaramanlılar və ya Qaramanoğulları məhz Qarabağdan, (bir qismi də Şirvandan) getmişdilər. Qaramanlıların davamçıları indi də Azərbaycanda yaşamaqdadırlar. Əsilləri Oğuzların Afşar boyundan olan Qaramanoğulları Hələb və Şam ətrafında, Sivasdan güneydə, Uzun ovada, Ərmənəkdə, böyük topluluqlar şəklində yaşayan bir oymaqdı. Bu nəslin başçılarından olan Nurəddin Sofinin qələbə yürüşlərindən sonra Anadoluda Qaramanoğullarının parlaq bir dövrü başlanır. Ermənəkdə Bizans-erməni hegemonluğuna son qoyandan sonra onlar iki yüz il Anadolu türklərinin tarixini hərəkətə gətirən qüvvələrdən biri olumuşlar. Məhz Qaramanoğluların zamanında Konyada "Sarayda, dövlət dairəsində, orduda türk dilindən başqa dilin işlədilməməsini "qadağan edən" fərman verilmişdi.

Avropaya türk sıçrayışlarının tramplinlərindən biri Qarabağ olmuşdur.

Bəlkə bunu da unutmayıblar...

Dünya bizimtək yaddaşsız deyil ki?!